

Üzeyir Hacıbəyov - 125

**Qədirbilən Azərbaycan xalqı böyük bəstəkar, dramaturq, publisist oğlu Üzeyir Hacıbəyli ilə haqlı olaraq fəxr edir. Ona görə ki, Üzeyir bəy əsrinin yaradıcılıq sınaqlarından qalib çıxmaqla dünya şöhrəti qazanmış və beləliklə də doğma xalqının başını ucaltmış əbədiyaşar sənətkardır.**

# Böyük musiqi diyarının möhtəşəm Üzeyir bayramı

Öz xalqına, onun musiqisinə və dilinə bəslədiyi intəhasız sevgisi Üzeyir bəyi bütün dünyada böyük məhəbbətlə qarşılanan ölməz əsərlər yazmağa ruhlandırmış, millətinin musiqi xəzinəsini daha da zənginləşdirmişdir. Onun yarım əsrdən artıq bir müddətdə aramızdan getməsinə baxmayaraq, şəxsiyyətinə və sənətkarlığına xalq sevgisi getdikcə artmaqdadır.

Üzeyir musiqisi əlçatmaz zirvə hesab edilir. Uşaqlardan tutmuş böyüklərədək hamı Üzeyir musiqisinin vurğunudur. Bu yaxınlarda telekanalların birində təşkil olunmuş uşaq verilişində balaca bir qızcığazdan soruşanda ki, nə oxuya bilir, o, dərhal irəli çıxaraq "Məşədi İbad" operettasından qoçuların "Ey, kimsən orda, aç qapını, gələk səni öldürək" musiqi parçasını böyük şövqlə oxumağa başladı. Çox təsirli səhnə idi. Bu, xalqın ən kiçik övladının da böyük bəstəkarın yaradıcılığına vurğunluğunun əyani sübutu idi.

Elə bir el şənliyi olmur ki, Üzeyir musiqisi səslənməsin. Onu xalqa sevdirən başlıca səbəb Üzeyir bəyin anlaşıqlı və nüfuzedici musiqi dilində danışa bilməsidir. Üzeyir bəy öz musiqi yaradıcılığında milli muğamlardan lazımi qaydada istifadə olunmasına xüsusi diqqət yetirirdi. Hər bir muğamın böyük əhəmiyyəti və özünəməxsus koloriti olduğunu digər Azərbaycan bəstəkarlarının da bilməsinin vacibliyini xüsusi vurğulayırdı. Üzeyir bəy böyük muğam bilicisi idi.

Buna görə də bəzi "çoxbilmişlər"in səksənədək muğam olması fikri ilə qətiyyən razılaşmır, sərbəst muğamların səkkizdən artıq olmadığını bildirirdi. Eyni zamanda, Üzeyir bəy muğamların xarakteristikasını verərək yazırdı ki, "Segah" muğamı lirik-aşiqanə xarakterli olduğu üçün öz operalarının aşiqanə səhnələrində bu muğamdan istifadə etmişdir. Məzlum xalqa hakim təbəqələrin qəddarlığını ifadə etmək üçün "Çahargah" muğamını əsas götürmüşdür.

Böyük bəstəkar "Rast" muğamının mərdlik, sevinc, mübarizə xarakterinə də önəm verir, onun muğam sistemi mədəniyyətinə daim yeniliklər və təravət gətirəcəyinə şübhə etmədiyini söyləyirdi. Üzeyir bəy istəyirdi ki, Azərbaycan bəstəkarları doğma xalqın musiqi dilində simfoniyalar yazsınlar. Digər xalqların musiqisinə nisbətən öz ahəngdarlığı ilə seçilən Azərbaycan

xalq musiqisi simfoniyaların əsasını təşkil etməlidir fikri ölməz sənətkarın gənc bəstəkarlar qarşısında qoyduğu tələblərdən birincisi idi. O, qətiyyətlə deyirdi ki, əgər bəstəkarlarımız xalqın musiqi dilinə uyğun gəlməyən, onun zövqünü oxşamayan simfonik əsərlər yazsalar, heç kimin xoşuna gəlməz. Xalqın ruhunu oxşaya bilməyən əsər yazan bəstəkar deyil. Üzeyir bəyin bu tələbinə musiqidə "müasirlik", "texniki bitkinlik" və s. bu kimi bəhanələrlə əməl etməyən bəstəkarların əsərlərinə xalqın biganəliyi anlaşılandır. Anaların, nənələrin muğam üstündəki laylaları ilə dünyaya göz açan, ana südünü öz muğamsayağı zümzümələri ilə əmərək ərsəyə gələn azərbaycanlıların musiqi başlanğıcının muğam olduğunu söyləsək, heç də yanılmarıq.

Bəzi "müasir" bəstəkarlarımız televerilişlərdə çox sayda simfoniyaları, oratoriyaları, fortepiano və skripka üçün süitaları barədə fəxrlə danışırlar. Amma çox təəssüflər olsun ki, onların bu əsərlərini özlərindən və yaxın qohum-əqrəbasından savayı heç kəs dinləmək iqtidarında deyil. Bu o demək deyil ki, xalqımız simfonik əsərlərdən, ümumiyyətlə, baş çıxarmır. Azərbaycanlı dinləyicilər arasında Qara Qarayevin, Cövdət Hacıyevin, Fikrət Əmirovun, Niyazinin, Soltan Hacıbəyovun və bir çox başqalarının, dünyanın Motsart, Bethoven, Berlioz, Hendel və bu kimi dəyərli bəstəkarlarının simfonik əsərlərini böyük həvəslə dinləyənlər çoxdur. Dediklərmizi Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Azərbaycanın dilbər guşəsi Qəbələ şəhərində düzənlənən musiqi festivalında yerli camaatın simfonik əsərlərə böyük maraq göstərməsi ilə də sübuta yetirə bilərik. Azərbaycan xalqı musiqi xiridarı olduğu üçün yalnız dərin kökləri olan və insan qəlbinin dərinliklərinə yol tapa bilən simfoniyaları sevir, kakofoniyaları yox!

Üzeyir bəy musiqili dram və dram əsərləri yazmaqla yanaşı, felyetonlar, elmi-publisistik məqalələr, dərsliklər də yazmış, ən yaxşı dünya ədəbiyyatı nümunələrini tərcümə etmiş, Azərbaycanda musiqi təhsilini qaydasına salmış, musiqi kadrlarının hazırlanması ilə məşğul olmuş, geniş ictimai işlərin ərsəyə gəlməsində fəal iştirak etmiş, müasir Azərbaycan musiqisinin nəzəri əsaslarını yaratmışdır. Üzeyir bəy yeni nəslin musiqi təhsili almasına var gücü ilə çalışırdı.

O, tələbələr üçün Azərbaycan dilində ilk musiqi məktəbini, musiqi texnikumunu təşkil etmişdi. Azərbaycan Dövlət Konservatoriyasının rektoru ikən əvvəlcə konservatoriya nəzdində, sonralar isə Azərbaycan Dövlət Filarmoniyasında ilk dəfə olaraq çoxsəsli xor kollektivi yaratmışdı. Azərbaycanda notla çalan ilk Xalq Çalğı Alətləri Orkestrinin yaradılması da Üzeyir bəyin adı ilə bağlıdır. Azərbaycanda ilk xalq mahnıları toplusu da böyük bəstəkarın qələminin məhsuludur. Üzeyir bəy 1920-ci ildə yazmağa başladığı "Azərbaycan xalq musiqisinin əsasları" kitabını 1945-ci ildə başa çatdırmışdı. O, xalqla xalqın dilində təmasda olmağı bacaran böyük istedad sahibi idi.

Dahi bəstəkarın ötən əsrin 20-30-cu illərində Xalq Çalğı Alətləri Orkestri üçün "Şur" və "Çahargah" fantaziyaları, skripka, violonçel və fortepiano üçün "Aşıqsayağı trio"su, bütün dünyada məşhur "Şahnamə" poemasının müəllifi Firdovsinin 1000 illik yubileyinə həsr olunan kantataları, xor üçün işləyib hazırladığı xalq mahnıları Azərbaycan xalqının zövqünü yüksək dərəcədə oxşayan əsərlər idi. İlk dəfə mahir muğam ustası, bənzərsiz gözəl səsli Xan Şuşinskinin səsinə yazdığı "Qaragöz" mahnısı hazırda da repertuarların bəzəyidir.

**Dahi bəstəkar Üzeyir bəy bütün Şərqdə ilk opera qaranquşu sayılan "Leyli və Məcnun" şedevrini yaradandan sonra 1909-cu ildə "Ər və arvad" operettasını yazmaqla Azərbaycanda operetta janrının əsasını qoymuşdur. Üzeyir bəy bütün operettalarının ("Ər və arvad", "O olmasın, bu olsun" və "Arşın mal alan") libretto mətnlərini özü yazmışdır. Üzeyir bəyin komediyalarının səciyyəvi cəhətlərindən biri bütün hallarda qadınların - Minnətin, Gülnazın, Gülçöhrənin dərin ağılları sayəsində xoşbəxt ailə qurmaq yolunda istəklərinə nail olmalarıdır.**

Üzeyir bəyin bütün musiqili komediyaları, ən başlıcası isə "Arşın mal alan" komik operası (bəstəkar bu əsərini 1913-cü ildə Peterburq Konservatoriyasında təhsil alarkən yazmışdı. Konservatoriyanın rektoru olan böyük rus bəstəkarı Aleksandr Qlazunov həmin komik operanın Şərq dünyasında, eyni zamanda, bütün dünyada da böyük şöhrət tapacağını əvvəlcədən demişdi) Qafqazın bütün bölgələrində böyük maraqla qarşılandığından onun sorağı Avropaya və hətta Amerikaya da gedib çıxmışdı.

Maqalyan soyadlı dələduz erməni bu operadan külli miqdarda qazanc götürmək üçün özü kimi digər bir dələduz ermənin (soyadı Mamulyan olub) köməyi ilə Üzeyir bəyin əsərini "Şərq motivləri" adı ilə Amerikada dəfələrlə tamaşaya qoymuş və nəhayət, ötən əsrin 30-cu illərində hətta film də çəkdirmişdi. 1942-ci ildə İranda səfərdə olan mədəniyyət xadimlərimizdən Süleyman Rüstəm, Şəmsi Bədəlbəyli, Qılman İlkin Tehran kinoteatrlarının birində Üzeyir bəyin bu şedevrinin erməni müəllifin adı ilə göstərildiyi filmə baxandan sonra Bakıya xəbər çatdırmış və şəxsən İ.Stalinin tapşırığı ilə 1942-ci ildə "Azərbaycanfilm" kinostudiyasında bu komik operanın ekran əsəri kimi çəkilişlərinə başlanmış və 1945-ci ildə tam ərsəyə gətirilmişdi. "Arşın mal alan" komik operasının mətni dünya xalqlarının 70-dən artıq dilinə tərcümə olunub. Qətiyyətlə demək olar ki, "Arşın mal alan" dünyanın ən çox sevilən musiqi əsəridir. Bir çox illər bundan əvvəl Azərbaycanda Ukrayna günləri keçirilən zaman bu respublikanın mədəniyyət naziri danışırdı ki, o, konservatoriyanın tələbəsi olan vaxt dostlarının yanına gəlibmiş.

Azərbaycan Dövlət Konservatoriyasında təhsil alan azərbaycanlı dostları onu nahara dəvət edəndən sonra biri digərindən soruşub: "Pulun var?" Ukraynalı qonaq dərhal onların fikrini başa düşüb və deyib ki, "Uşaqlar, narahat olmayın, məndə də pul var". O, gülə-gülə danışırdı ki, "Pulun var?" ifadəsini "Arşın mal alan" komik operasında Telli ilə Vəlinin dueti zamanı öyrənib. Budur sənət əsərinin gücü, onun insanların məfkurəsinə təsiri. Hətta qeyri-azərbaycanlılar da bu sənət şedevrinin ekran versiyasına dəfələrlə baxmışlar. Üzeyir bəyin "Məşədi İbad" operettası da öz xəlqiliyi ilə seçilir.

Bu əsərə baxdıqca baxmaq, dinlədikcə dinləmək istəyirsən. Müəllifin həyat verdiyi personajlar xarakterlərinin müsbət-mənfiliyindən asılı olmayaraq sevilir, onların hər bir hərəkəti insanın ovqatını yaxşılaşdırır. "O olmasın, bu olsun", yaxud "Məşədi İbad" filmindəki obrazların hər biri Üzeyir bəyin librettosunun gücü sayəsində tiplər qalereyasının fəal üzvünə çevrilmişdir. Əliağa Ağayevin Məşədi İbadı, İsmayıl Osmanlının qəzetçi Rzası, Mövsüm Sənaninin qoçu Əsgəri, Mustafa Mərdanovun intelligent Həsəni, Ağasadıq Gəraybəylinin Rüstəm bəyi aktyor interpretasiyası baxımından böyük sənət nümunələri kimi dəyərləndirilməlidir.

Üzeyir bəyin klassik opera qanunlarına tam cavab verən bir əsər yazmaq arzusu da vardı. Məşhur sənət xadimi Ramazan Xəlilov danışırdı ki, Gürcüstanın Koroğlu dağı deyilən səfalı bir yerində istirahətdə olarkən Üzeyir bəyə sual verdim ki, "Üzeyir bəy, "Şeyx Sənan" operanızın partiturasını cırıb atmaqla öz zəhmətinizə heyfiniz gəlmədi?" O, sualımı cavablandırmazdan öncə adəti üzrə qısa bığlarını tumarlaya-tumarlaya belə dedi: "Şeyx Sənanı mən yazdığıma görə beynimdə həkk olunub. Vaxtı gələndə ondan istifadə edəcəyəm". Etdi də. Ramazan müəllimin dediyinə görə, "Koroğlu" operasını yazarkən Üzeyir bəy həmin operanın musiqi məqamlarından da yararlanıb. Xatırladaq ki, 1909-cu il noyabrın 30-da "Şeyx Sənan"ın ilk tamaşası uğursuz alındığından müəllif onun bir daha tamaşaya qoyulmasını istəməmişdi. Uğursuzluğun səbəbi isə müəllifin bu operanı yazarkən xalqa yaxın improvizasiyalardan imtina etməsi idi. Onun 1910-cu ildə tamaşaya qoyulmuş üçüncü operası "Rüstəm və Söhrab" da uğurlu alınmamışdı.

Üzeyir bəy bundan pərt olmayaraq dördüncü operası "Əsli və Kərəm"i yazmışdı. Müəllif bu əsərində tamaşaçılarda dini xurafat hallarına, məsələn, sevgililərin arzularının həyata keçməsinə imkan verməyən erməni keşişinə nifrət hissini artırmaqdan ötrü onun (keşişin) partiyasına Azərbaycan dinləyicilərinə o vaxtlar yad olan bariton tembri verməyi lazım bilmişdi. Xalq Cəbhəsi qaragüruhçuları müəllifin mətləbini anlamadıqları üçün öz hakimiyyətləri dövründə "Əsli və Kərəm" kimi maraqlı operanın repertuardan çıxarılmasına fərman vermişdilər. Teatr rəhbərliyindən aldığımız məlumata görə, Üzeyir bəyin bu baxımlı və dinlənilməli əsəri cari ildə yenidən öz səhnə təcəssümünü tapacaq. Fikrimizcə, Üzeyir opera irsinin "Rüstəm və Söhrab", "Şah Abbas və Xurşudbanu" kimi digər opera nümunələri ilə də tamaşaçıların tanış olmaları barədə fikirləşməyə dəyər.

Üzeyir Hacıbəyli uzun illər xalqın sevimlisi olan qəhrəman Koroğlu haqqında klassik opera janrının bütün tələblərinə uyğun gələn əsər ərsəyə gətirmək arzusu ilə yaşayırdı. Nəhayət, böyük bəstəkar öz arzusuna çatdı. 1937-ci ildə "Koroğlu" operası Azərbaycan Dövlət Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyuldu və xalq tərəfindən rəğbətlə qarşılandı. Bu opera 1938-ci ildə Moskvada keçirilən incəsənət ongünlüyündə tamaşaçılara təqdim olundu.

Bolşoy Teatrın aparıcı dirijoru "Koroğlu" operası haqqında fikrini "İzvestiya" qəzetində dərc etdirdiyi məqaləsində belə ifadə etmişdi: "Üzeyir Hacıbəyli dünyanın musiqi mədəniyyəti nailiyyətlərindən bacarıqla istifadə edərək formaca milli əsər yazmışdır. O öz yaradıcılığında böyük klassiklərin - Bethovenin, Motsartın, Verdinin, Qlinkanın yolu ilə getmişdir. Əsərin musiqisi çox ifadəlidir, anlaşıqlıdır və milli ruhda köklənmişdir. Bəstəkar Avropa major və minoru ilə yanaşı, milli musiqi məqamlarından da məharətlə istifadə etmişdir".

**Hər il sentyabrın 18-i Milli Musiqi Günü kimi qeyd olunur. Böyük bəstəkar 1885-ci il sentyabrın 18-də dünyaya gəlmişdi. Onun bütün amalı doğma xalqına xidmət etmək olmuşdur. O, xalq üçün yaşamışdır, bu səbəbdən də xalq onu əsrlərlə yaşadacaqdır!**

● **A. HÜSEYNOV**